**Emiliya Boltyanskaya**
**rus publisisti**

## Doğrudanmı möhtəşəmik?

Rusiyadakı intellektual elita hələ kommunist əyyamında onu mükəmməl əxz eləmişdi ki, dövlətin başında duranlar, ölkənin liderləri anadan olandan bəri hər şeyə qadirdilər, hər şeyi bilib, hər şeydən baş çıxarırlar. Bunların bilmədiyi demək olar ki, heç bir sahə yoxdur. Məsələn: ölkənin rəhbərləri hər hansı dilçiyə, dilçiliyə dair mühazirə oxumağa qadirdir. Tarixçiyə tarixdən dərs deyərlər, bioloqa genetika elmini öyrədərlər, riyaziyyatçılara hətta kibernetikasız keçinməyi belə öyrədərlər; hələ harasıdı? Lazım gəlsə kəndlilərə taxılı, ya başqa dənli bitkiləri nə vaxt səpmək barədə məsləhət verərlər. Qaldı mədəniyyət xadimləri - onlara qələmi necə tutmağı, romanı, hekayəni necə yazmağı, rəssama şəkil çəkməyi, heykəltəraşa heykəl yonmağı da öyrədərlər. Bu məsələyə azca şübhə edənləri, şəkkakları bu "anlamazlığa görə" hər cürə cəzalar veriblər. Belə "başəndərmə" ilahiləşdirmə istər yüksək təbəqədə, istərsə xalqın özündə, az qala anadan olandan hələ göbəkləri kəsiləndən üzü bəri daşlaşıb qalıb. Elə indinin özündə belə "göydən zənbillə düşənlər" hər təbəqədə təzədən dəbə düşür. Xüsusilə, Mərkəzi televiziya kanallarında...

"Rossiya" kanalının tanıqlı aparıcılarından sayılan Vladimir Solovyov özünün siyasi teleşousunda camaata əyan eylədi ki, Rusiyada artıq "demokratiya ayaq tutub yeriyir" və ölkə vətəndaşları hətta lazım gəlsə, prezidentin rəyi ilə də razılaşmaya bilər. Amma, bunun üstündən ölkə başçısının təqaüd islahatı barədə müzakirəsi göstərildi və bununla da həmin məsələnin geniş müzakirəsinə televiziyada xitam verildi.

Rusiya vətəndaşları belə hesab edir ki, ölkədə çalışan məmurlar və idarə rəhbərləri, hətta ən adi, aşağı səviyyəli işçilər belə özlərinə istədiyi maaşı kəsir; həmin maaşlar isə ölkədəki sıravi vətəndaşların əmək haqqından yüz dəfə, hətta min dəfə belə çoxdur. Bunu yerli hakimiyyətlərin siyasəti saymaq da düzgün deyil. Axı, ölkə rəhbərləri həmin o yerli, balacalı-böyüklü "hökmdarları" özünə arxa-dayaq bilir. Bu yolla hökumət xalqın qəzəbini özündən uzaqlaşdırır və elə bir təsəvvür yaratmağa çalışır ki, guya yuxarılar "ədalət tərəfdarıdı" və əyər şikayətləri ünvanına çatsa, mütləq tədbir görüləcək...

Onu deyim ki, həyata keçirmək istənilən təqaüd islahatı xalqa hakimiyyətin əsl sifətini açıb göstərmiş oldu. Yəni, demək istəyirəm ki, yuxarılar onsuz da dilənçi kökündə yaşayan xalqın, eləcə dilənçi payı sayıla bilən təqaüdünü də əlindən qapmaq istəyir. Xalq o dərəcədə aciz və hüquqsuzdur ki, yuxarının bu istəyinə qail olur. Və bilir ki, hakimiyyət belə bir qərara gəlibsə, öz dediyindən dönən deyil. Birdə ki bu islahata qarşı çıxan bir çox adamlar bilir ki, bu minvalla təqaüd yaşına qədər ömür sürən çətin ki, tapıla...

İndiki "liberal" hakimiyyət çox şeyi keçmiş kommunist rejimindən əxz eləyir. Və bu yolda kütləvi informasiya vasitələrinin, xüsusilə televiziyanın köməyi ilə xalqı avam gününə qoyur, öz marağına uyğun olaraq, barmaqdan sorulma informasiya və təbliğatla başını qatır. Onu qeyd etmək yerinə düşər ki, elə kommunist rejimi də, vaxtilə xalqı müntəzəm olaraq aldatdığına və ona yalan satdığına görə dağılıb getdi.

Onu deyək ki, Rusiyada intellektual sinif və ya kübar cəmiyyətə o adamlar yol tapa bilir ki, hansısa qohum-qardaşı ona himayədarlıq edir və ya milli mənsubiyyətinə görə, yuxarılara yarındıqlarına görə "pilləkəndə" yuxarı dırmaşa bilirlər. Onu da deyək ki belə münasibət kommunistlərin dövründə məhz Stalinin ölümündən sonra başladı. Belə bir dövlət siyasəti ora gətirib çıxardı ki, neçə illərdir ölkə, müasir ideya və texniki, elmi, mədəni tərəqqinin nailiyyətlərini başqa ölkələrdən öyrənməli olur. Belədə isə təbii ki, ölkə daxilində intellektual, həm də yaradıcı potensialın bolluğuna baxmayaraq, istedadlı insanlar özünü tanıtmağa qadir deyil.

Bu səbəbdən vaxtlı-vaxtında bizi məcbur edirlər ki, kiməsə çataq, kimisə ötüb keçək; illər uzunu onun şahidi olmuşuq ki, Rusiyada adi cins şalvarın, saqqızın və radio elektron cihazların çatışmazlığı ucbatından xalq az qalıb ki, qiyam qaldırsın. Diribaş adamlarsa belə vəziyyətdən "qaz vurub, qazan doldurublar".

Biz hələ də özümüzü "möhtəşəm dövlət" sayırıq. Amma əslində isə bu "möhtəşəmliyi" yalnız ucsuz-bucaqsız ölkəmizin sərhədləri ilə, indiki zamanda texniki sarıdan təchiz olunmuş ordumuzla ölçürük.

Mənə qalsa, sözün əsl mənasında əzəmətli bir dövlət olmaqdan ötrü "yarımüstəmləkə" vəziyyətindən çıxmaq gərəkdir. Rusiyanın indiki vəziyyətində qazanan yalnız "diribaş" adamlardır. Gərəkdir ki, bunların yerini oliqarxlar sinfi və əcnəbi kapitalla heç bir bağlantısı olmayan əsl →

intellektuallar tutsun və Rusiyanın dövlət maraqları onların gözündə hər şeydən ucada dayansın. Axı onların özləri, eləcə onların nəvə-nəticəsi də bu ölkədə yaşayacaq. Hansı ölkədə yaşamağından asılı olmayaraq yenə əlaqələri heç vaxt əksilmir və əksilən deyil. Əsl mənada diribaş adamlar ağılla-kamalla durub-oturmalı, Rusiyaya layiq iqtisadi inkişaf yolu seçməlidir. Çünki bu ölkəyə yalnız ziyan gətirən, xalqa yad olan iqtisadi modellərdən faydalanmağa dəyməz.

qanunlarını yaşamır. Buna "vəhşi kamitalizm" deyirlər - daha doğrusu neo-feodalizm. Və bu yol bütün ölkəni başdan-ayağa asılı vəziyyətə sala bilər.

### Biz ruslar beləyik...

Televizoru qoşuram və görürəm ki, hansısa nəhəng bir konsert salonunda cavan oğlanlar belə oxuyur: "Biz ruslar bax beləyik!" "Qəhrəman", "müharibə" və başqa buna bənzər "döşədöymələr". Bu ona çəlit vurur ki, hökumətə təzə-təzə rus əsgərləri lazımdı. İndi ucqar şimalda, Sibirin dərinliklərində, dənizdə, okeanlarda işləyən cavanlara da ehtiyac görünür. Yaxşı, bəs onların artıqlaması ilə haqqını kim verəcək? Düzdü, belə cavanlar ucu-bucağı bilinməyən Rusiyanın hər tərəfində gərəkdir. Televiziyada belə hədə-qorxulu "asıb-kəsən" mahnılar oxuyan cavanlar ölkənin hər tərəfində başdan-ayağa boşalmış, qapılarına, pəncərələrinə çarpazına taxta vurulmuş kəndlərə, məskənlərə, əkilib-biçilməyən torpaqlara daha artıq lazımdı. Axı bu günkü cavan və yaxud ayağı yer tutan hər hansı kənd adamı bizim pulnan 5-7 rubla necə tər töküb işləsin? Hələ bu işi tapmağın özü də müşküldür. Ahılların, qocaların qəpik-quruş təqaüdünü - xəstəxanalar və nəvə-nəticə oxuyan məktəblər də qarət eləyir. Buna bənzər rus əhlinin həyatı, dolanışığı hökumətin gözündə deyil. Onu da deyək ki, Rusiyanın

Trotski və Tuxaçevskinin, hətta Xruşşovun hakimiyyəti dövründə belə bu qırğın və "təmizləmə" işi davam etməkdəydi. Hələ onu demirəm ki, Brejnevin əmri ilə Əfqanıstana girən Sovet Ordusu nə qədər günahsız adamın qanına bayis oldu... Ərz eləyək ki, Stalin repressiyasına qurban gedənlərin bir çoxu elə dünəni, srağagünü, kimlərisə bada verən, onlardan danos yazan cəlladların özləri idi. Hətta bu yaxınlarda mən "Kultura" kanalında bir müzakirənin şahidi oldum. Orda dedilər ki, hansısa Moskva evlərinin, ya da mənzillərin birində divara bir xatirə lövhəsi vurulsun... Əbəs işdir. Çünki kommunist rəhbərlərin əmri ilə güdaza gedən mədəniyyət xadimlərinin, elm, sənət, qələm adamlarının adlarını sadalasaq, sonu görünməyən həmən siyahı heç bir xatirə lövhəsinə sığışan deyil...

**"Literaturnaya qazeta"**
**2.10.2018-ci il.**